Təhsil naziri Misir Mərdanov görüşü giriş sözü ilə açaraq müəllimləri müsabiqənin növbəti mərhələlərində iştirak etmək hüququ qazanmaları münasibətilə təbrik edib və onlara qarşıdakı mərhələlərdə uğurlar arzulayıb. “Ən yaxşı müəllim” müsabiqəsinə 460 nəfərin sənəd verdiyini, onlardan 203 müəllimin II və III mərhələdə iştirak üçün seçildiyini qeyd edən nazir onu da əlavə edib ki, bu il də iştirakçılar arasında say etibarı ilə üstünlük ibtidai sinif və ingilis dili müəllimlərinə məxsusdur. Müsabiqənin əsas məqsədinin ən yaxşı müəllimin üzə çıxarılması olduğunu vurğulayan Misir Mərdanov iştirakçıların 20-23 aprel tarixlərində Bakı şəhərinin müəyyən edilmiş məktəblərində sınaq dərsi keçəcəklərini nəzərə çatdırıb. Nazir iştirakçı müəllimlər üçün həmin məktəblərdə lazımi şəraitin yaradılması barədə müvafiq şəxslərə tapşırıqlar verildiyini bildirib. Sınaq dərsləri deyəcək müəllimlərin Təhsil Nazirliyinin əmri ilə təsdiq olunmuş ekspert qrupları tərəfindən dinləniləcək, müəyyən edilmiş meyarlar üzrə qiymətləndiriləcəyini qeyd edən Misir Mərdanov hər ekspert qrupuna obyektivliyi təmin etmək üçün 3 mütəxəssisin daxil edildiyini diqqətə çatdırıb. Təhsil naziri sınaq dərslərində toplanılan balın həmin gün elan olunacağını, iştirakçı müəllimlərin III mərhələdə fəaliyyətlərinin əsas istiqamətləri, uğurları, rəy və təkliflərinin əksini tapdığı 10 dəqiqəlik təqdimatla çıxış edəcəklərini vurğulayıb.

Daha sonra nazir “Ən yaxşı müəllim” müsabiqəsinin iştirakçılarına tövsiyə və tapşırıqlarını verib.

Sonda iştirakçı müəllimləri maraqlandıran suallar cavablandırılıb.